HEKS EPER

CENN
Shaping the Future by Changing Today

# İQLİMƏ DAVAMLI KƏND TƏSƏRRÜFATI QRANT MÜSABİQƏSİ

Qrant bələdçisi

Sənəd “İqlimə davamlı kənd təsərrüfatı – PRAİSE Marneuli” layihəsi çərçivəsində CENN tərəfindən hazırlanıb.  Lazım gələrsə,  sənəd tam və ya qismən yenilənəcək.

2022-CI IL

# MÜNDƏRICAT


1. LAYIHƏ HAQQINDA ........................................4

2. QRANT MÜSABIQƏSI HAQQINDA .................4

3. MÜSABIQƏDƏ IŞTIRAK ETMƏK.....................5

4. QRANTIN MALIYYƏLƏŞDIRILMƏSININ MÜMKÜNLÜYÜ VƏ MƏBLƏĞI .......................6

5. MÜSABIQƏNIN MƏRHƏLƏLƏRI, SON TARIXLƏR VƏ ƏRIZƏLƏRIN SEÇILMƏSI/ QIYMƏTLƏNDIRILMƏSI .................................7

6. MÜRACIƏTLƏR VƏ ŞIKAYƏTLƏR KOMISSIYASI ............................................12

7. LAYIHƏNIN MALIYYƏLƏŞDIRILMƏSINDƏN SONRA MONITORINQ ..................................12

# 1. LAYIHƏ HAQQINDA

"İqlimə davamlı kənd təsərrüfatı – PRAİSE Marneuli" layihəsi HEKS-EPER tərəfindən maliyyələşdirilib və Marneuli bələdiyyəsində ətraf mühitə uyğun və iqlimə qarşı daha möhkəm kənd təsərrüfatına (CRA) dəstək olmaq və tanıtmaq yolu ilə əhalinin (xüsusilə, həssas qrupların) gəlir əldə etmək imkanlarının artırılmasına xidmət göstərir.

Layihənin məqsədi bələdiyyənin kəndlərində kasıblığın azaldılması, yaşam tərzinin yaxşılaşdırılması, iqtisadi, sosial, ekoloji və insan hüquqları məsələlərinin həllidir. Qeyd olunan məqsədlərə nail olmaq kənd təsərrüfatı rəqabətliliyinin yaxşılaşdırılması, təbii resursların davamlı idarəsinə dəstək olmaq və iqlimə davamlı kənd iqtisadiyyatı, yerli icmaların qurulması yolu ilə mümkündür. Layihə kiçik sahibkarların, qadınların, gənclərin, etnik azlıqların, digər yerli aktorların bilik, innovativ yanaşmalara çıxış imkanlarının artırılmasına, dəyər zəncirinin inkişafına (layihə əsasən tərəvəzçiliyin dəyər zəncirinin gücləndirilməsinə aksent edir), yaxşı təcrübələrin nümayiş etdirilməsinə, biznes əlaqələrinin yaradılması və işlə təmin etmənin yeni imkanlarına dəstək olur.

# 2. QRANT MÜSABIQƏSI HAQQINDA

İqlimə davamlı kənd təsərrüfatı qrant müsabiqəsinin məqsədi Marneuli bələdiyyəsində iqlimə davamlı kənd təsərrüfatı təcrübələrinin tətbiq edilməsinə və bu yolla yerli əhali üçün gəlir yaratmaq şəraitinin artırılmasına, yaşam tərzinin yaxşılaşdırılmasına xidmət göstərən təşəbbüslərin və layihələrin aşkarlanması, maliyyələşdirilməsidir.

Qrant müsabiqəsi çərçivəsində maliyyələşdiriləcək təşəbbüs və layihələr xidmət göstərməlidir:

- İqlimə davamlı və ətraf mühitə uyğun kənd təsərrüfatı texnologiyaları və təcrübəsinin tətbiqi, təbii resursların davamlı idarə edilməsi;
- Qadınların, gənclərin, etnik azlıq və digər həssas qruplar üçün (aztəminatlı qruplar, ekomiqrantlar, məcburi qaçqın şəxslər, fiziki imkanları məhdud şəxslər) kənd təsərrüfatı sektorunda gəlir yaratmaq imkanlarının inkişaf etdirilməsi;
- Kənd təsərrüfatı işlərinin iqlim dəyişikliyinə adaptasiyası və onun rəqabətliliyinin artırılması;
- Yerində iqlimə davamlı kənd təsərrüfatının inkişafına və ətarf mühitin mühafizəsinə dəstək olacaq davamlı biznes və ya sosial xidmətlərin yaradılması.

Qrant müsabiqəsi çərçivəsində göndərilmiş təşəbbüslər və layihələr Marneuli bələdiyyəsi üçün iqlimə davamlı kənd təsərrüfatı çərçivə sənədində təsvir edilmiş çətinliklərə cavab verməlidir.

CENN qeyd olunan layihə çərçivəsində minimum bir qrant müsabiqəsi elan edəcək. Elan edilmiş müsabiqə haqqında layihənin "PRAISE – MARNEULI" Facebook səhifəsindən və CENN-nin veb-səhifəsindən - www.cenn.org məlumat almaq mümkün olacaq. Layihənin komandası eləcə də Marneuli bələdiyyəsində məlumatlandırıcı görüşlər keçirəcək.

# 3. MÜSABIQƏDƏ IŞTIRAK ETMƏK

**3.1. Qrant müsabiqəsində sonrakı subyektlərin iştirak etmək hüququ var:**

1. Marneuli bələdiyyəsində yaşayan həddi-büluğa çatmış Gürcüstan vətəndaşları (fiziki şəxslər);
2. Fiziki şəxslərdən ibarət qruplar (Təşəbbüs qrupları);
3. Marneuli bələdiyyəsində qeydiyyatdan keçmiş və ya fəaliyyət göstərən hüquqi şəxslər (Qeyri-hökumət təşkilatı, icma mərkəzi, assosiasiya, MMC, fərdi sahibkar, kooperativ);
4. Marneuli bələdiyyəsində mövcud olan mədəni-təhsil müəssisələri, təşkilatlar;

**Yuxarıda qeyd olunan şəxslər layihəni Marneuli bələdiyyəsində həyata keçirməlidirlər!**

**Qeyd 1:** Layihəni fiziki şəxs və ya şəxslər qrupu təqdim edə bilər. Ancaq layihənin həyata keçirilməsinə dair komissiya tərəfindən müsbət qərar verilən halda, layihəni təqdim edənlərdən hüquqi şəxs təsis etmək tələb olunacaq.

**Qeyd 2:** Əgər ərizəçinin aztəminatlı statusu varsa, nəzərə almalıdırlar ki, qrant qazandıqları halda ola bilsin, dövlət tərəfindən qeyd olunan statusun yenidən verilməsi məsələsinə baxış keçirilsin.

**3.2. Müsabiqədə iştirak etmək hüququ yoxdur:**

1. Siyasi partiyaların;
2. Dini təşkilatların;
3. Maliyyə institutlarının (Bank; Mikromaliyyə institutu, Lombard və s.);
4. Cinsiyyət, dini baxış, etnik mənşəy və cinsi istiqamət əsasında fiziki şəxslərin və ya konkret qrupların diskriminasiyasını həyata keçirən təşkilatlar, ittifaqlar, birliklər, təşəbbüs qrupları və s.

Qeyd olunanlardan əlavə, müsabiqədə iştirakı müzakirə edilməyəcək aplikantlar:

- Layihənin həyata keçirilməsi üçün təklif olunan obyektdə (torpaq, bina-tikili və s.) ipoteka, girov, müsdirə varsa;
- Təklif olunmuş obyekt (torpaq, bina-tikili və s.) onların əmlakına daxil deyilsə və ya qeyd olunan obyektdə uzunmüddətli (minimum 5 il) icarə müqaviləsindən istifadə edirlərsə. İcarə qismində konkret layihənin maliyyələşdirilmə məsələsinə, maliyyələşdirilmiş layihənin məzmunundan, miqyas və büdcəsindən irəli gələrək fərdi yanaşma ilə qərar veriləcək.

# 4. QRANTIN MALIYYƏLƏŞDIRILMƏSININ MÜMKÜNLÜYÜ VƏ MƏBLƏĞI

**Qrant üçün müraciət çərçivəsində tələb olunan məbləğin (qrantın) minimal miqdarı 4,000 lari, maksimum isə 17,000 lari təşkil edir**

Qrant müsabiqəsi biznes/kommersiya, eləcə də sosial və maarifləndirici layihələrinin həyata keçirilməsinə dəstək olacaq. **Müraciət edənlərdən təqdim olunmuş layihənin ümumi büdcəsinin minimum 20% qarşılıqlı maddi iştirak tələb olunur (qarşılıqlı maliyyə olaraq yalnız maddi iştirak hesab olunacaq),ancaq sosial və təhsil layihələrini həyata keçirmək üçün müraciət edən şəxslərdən qarşılıqlı maddi iştirak tələb olunmur.**

**Layihə büdcəsinin qarşılıqlı iştirak faizinin hesablanması formulasına nümunə.**

A. Layihənin ümumi dəyəri: misal olaraq, 18, 000 lari.

B. Qarşılıqlı iştirak: Misal üçün, 20%

C. Müraciət edənin kontribusiyası: 3,600 lari (A*B = 3,600).

D. Qrant Fondundan tələb olunan məbləğ 14,400 lari (A-C=14,400)

**Qeyd 1:** Qrant Fondundan tələb olunan məbləğ 17,000 laridən artıq olmamalıdır. Layihənin həyata keçirilmə müddəti biznes/kommersiya təşəbbüsləri halında 4 aydan, sosial və maarifləndirici təşəbbüslərdə isə 6 aydan artıq olmamalıdır.

**Qeyd 2:** Qrant maliyyəsi, eləcə də qarşılıqlı iştirak məbləği yalnız investisiya məqsədlərinin maliyyələşdirilməsi üçün ayrılıb və cari xərclərin təmin edilməsini nəzərdə tutmur.

## ƏLAVƏ ŞƏRTLƏR:

- Ərizəçi, layihə üçün müraciəti ilə birlikdə, layihənin həyata keçirilməsi üçün qeyd olunmuş obyektin (Məsələn, torpaq, tikili) əmlak hüququnun qeydiyyat sənədini və ya uzunmüddətli icarə (minimum 5 il) müqaviləsini əlavə olaraq təqdim etməlidir.
- İlk növbədə, benefisiar özünə məxsus qarşılıqlı iştirak məbləğini tamamilə xərcləməli və müvafiq maliyyə sənədlərini təqdim etməlidir.CENN benefiardan onun qarşılıqlı iştirak məbləğini təsdiq edən sənədləri təqdim etdikdən və monitorinq nəticəsində işin keyfiyyətli görüldüyünü təyin etdikdən sonra, təşkilat qrant məbləği ilə müəyyən olunmuş işləri maliyyələşdirməyə başlayacaq və həmçinin özü bu məbləğlə alınması nəzərdə tutulmuş məhsul və xidmətlərin əldə edilməsini, daşınmasını və ya montajını təmin edəcəkdir.

## SONRAKI XƏRCLƏR QRANT RESURSU ILƏ MALIYYƏLƏŞDIRILMIR:

1. Əməkhaqqılar (İstisna hallarda ola bilsin ekspertin/mütəxəssisin honorarı maliyyəlşdirilsin);
2. İribuynuzlu və xırdabuynuzlu mal-qaranın, ev quşlarının, arı ailələrinin alınması;
3. Daşınmaz əmlakın alınması;
4. Avtomobil, mikroavtobus, avtobus və s. (layihənin spesifikasından və ehtiyacından irəli gələn istisna hallardan başqa );
5. Seminarlarda, iş görüşmələrində və konfranslarda fərdi iştirak;
6. Araşdırmaların və ya təlimlərin fərdi maliyyələşdirilməsi. Yalnız bu əsas fəaliyyətin tərkib hissəsi olarsa bu zaman mümkündür;
7. Akademik və elmi araşdırmalar;
8. Təhsil/elmi qrantlar;
9. Humanitar aksiyalar və fəaliyyət;
10. Borclar və gələcək mümkün ziyanlar üçün nəzrdə tutulmuş xərclər;
11. Ödənilməli olan faizlər,borclar, cərimələr;
12. Valyuta konvertasiyası nəticəsində yaranmış zərər;
13. Üçüncü tərəfə verilmiş kreditlər;
14. Sığorta xərcləri;
15. İkinci əl texnika, avadanlıqlar, materiallar və s.
16. Gürcüstanın qüvvədə olan qanunvericiliyi ilə qadağan edilmiş fəaliyyətlər.

# 5. MÜSABIQƏNIN MƏRHƏLƏLƏRI, SON TARIXLƏR VƏ ƏRIZƏLƏRIN SEÇILMƏSI/ QIYMƏTLƏNDIRILMƏSI

Qrant müsabiqəsi sonrakı mərhələlərdən ibarətdir:

**I mərhələ** - Tam layihə təklifinin təqdim olunması

**II mərhələ -** Müraciətin müzakirəsi və qrant komissiyası tərəfindən qiymətləndirilməsi

**III mərhələ-** Monitorinq və söhbət

**IV mərhələ -** Qrant müraciətlərinin təsdiqlənməsi/müqavilənin bağlanması.

# I MƏRHƏLƏ - TAM LAYIHƏ TƏKLIFININ TƏQDIM OLUNMASI

Ərizəçi qrant ideyasının tam ərizəsini təqdim edən zaman qeyd olunan forma və əlavələri göndərməlidir:

**Formalar (doldurulmuş formaların imzalı olması mütləqdir):**

- **Forma 1:** Layihə üçün doldurulmuş müraciət;
- **Forma 2:** Layihənin ətraflı büdcəsi (məbləğlər ƏDV (əlavə dəyər vergisi) daxil olmaqla qeyd olunmalıdır);
- **Forma 3:** Mənfəət və zərər sənədi.
- **Forma 4:** Layihnin büdcəsinə əsasən nəzərdə tutulmuş xərcləri təsdiq edən invoislər ( əgər, xidmət göstərən şirkət potensial benefisiar üçün invois verə bilməyirsə)

**Əlavələr**

- **Əlavə 1:** Layihənin həyata keçirilməsi planlaşdırılan, layihədə qeyd olunmuş obyekt üçün (torpaq, bina-tikili) əmlak hüququnu təsdiq edən sənəd və ya uzunmüddətli icarə (minimim 5 il) müqavilə);
- **Əlavə 2:** Əgər ərizəçi hüquqi şəxsdirsə, Kommersiya və Qeyri-kommersiya Hüquqi Şəxslər Reyestrindən yenilənmiş sənəd təqdim etməlidir;
- **Əlavə 3:** Layihənin büdcəsi ilə nəzərdə tutulmuş xərcləri təsdiq edən invoyslar;
- Lazım gələrsə digər sənədlər.

Doldurulmuş formalar və əlavələr elektron şəkildə, imzalanmış və ya mövcud olduğu halda möhürlə təsdiqlənərək qeyd olunan elektron poçt ünvanına göndərilməlidir: grants@cenn.org

Göndərişin əsas sütununda **“Qrant müsabiqəsi – PRAİSE MARNEULİ 2022”** qeyd olunmalıdır. Bir ərizəçi yalnız bir ərizə təqdim edə bilər. Ərizəçi cavab maili vasitəsi ilə müraciətinin qəbul olunması barədə məlumat alacaq.

Müraciəti Gürcü, Azərbaycan və ya Erməni dillərində təqdim etmək mümkündür. Ancaq, sənəd notarial qaydada təsdiq olunmuş və gürcü dilinə tərcümə edilmiş şəkildə təqdim olunmalıdır. **Layihənin son qəbul tarixi 25 yanvar, 2023-cü il, saat 18:00-dək.** Vaxtından sonra təqdim olunan və ya əl ilə doldurulmuş layihə ideyaları qəbul olunmayacaq.

Müraciət formalarının doldurulması və təqdim edilməsi ilə əlaqədar texniki məsələlərlə maraqlanan şəxslərə müraciət vaxtı başa çatana qədər distant eləcə də birbaşa məlumatlandırma görüşləri çərçivəsində məsləhətlər veriləcək.

# II MƏRHƏLƏ - MÜRACIƏTIN MÜZAKIRƏSI VƏ QRANT KOMISSIYASI TƏRƏFINDƏN QIYMƏTLƏNDIRILMƏSI

Tam doldurularaq təqdim edilmiş müraciətin müzakirə edilməsi üçün 7 üzvdən ibarət qrant komissiya yaradılacaq: CENN-nin 4 nümayəndəsi, layihə çərçivəsində yaradılmış çoxşaxəli işçi qrupunun (MSWG) nümayəndələri, donor təşkilatın nümayəndələri.

Müraciətlərin müzakirəsi prosesinə, ehtiyacdan və layihənin spesifikasından irəli gələrək, müxtəlif sahə ekspertləri dəvət oluna bilər. Qrant komissisyası yekun qərar qəbul etmə prosesində onların rəy və tövsiyələrini nəzərə alacaq.

**Müraciətlərin maddi-inzibati yoxlayışı**

Qrant müraciəti, onun seçilməsi və qiymətləndirilməsi prosesinə başlayana qədər maddi-inizbati yoxlayışdan keçiriləcək (təqdim etmə vaxtı, ərizə forması, müraciət edənin rekvizitləri, əlavələrin dəqiqliyi, büdcənin uyğunluğu və s.).

Komissiya maddi-inzibati yoxlayış mərhələsində aşkralanan səhvlər olan halda ərizəçiyə səhvlərin düzəldilməsi üçün vaxt verəcək. Vaxt keçdikdən sonra əgər səhv düzəldilməzsə qrant müraciəti müsabiqədən çıxarılacaq.

# QIYMƏTLƏNDIRMƏ VƏ SEÇIM PROSESI

Müraciətin qiymətləndirilməsi sonrakı meyarlara əsasən olacaq:

| Qiymətləndirmə meyarları | Bal |
|---|---|
| 1. **İdeyanın aktuallığı və layihənin məqsədinə, prioritetli istiqamətlərə uyğunluğu**<br><br>Layihənin ideyası hədəf bələdiyyə üçün aktualdır və iqlimə davamlı kənd təsərrüfatı təcrübəsi və ekologiyaya uyğun texnologiayların tətbiqi, məşhurlaşdırılması ilə əlaqədədir, qrant müsabiqəsinin bir və ya bir neçə prioritetli istiqamətinə uyğundur (Bax. başlıq 2). | **15 bal** |
| 2. **Layihənin həyata keçirilmə strategiyası, fəaliyyət planı və risklərin analizi**<br><br>Biznes/kommerisya layihələri olan halda: Layihə müraciətində qrant layihənin həyata keçirilməsinin, aplikantın kənd-təsərrüfatı istehsalının yaxşılaşdırılmasına necə dəstək olacağı, satış bazarının necə olduğu, rəqabət, müştərilərin kim olacağı aydın şəkildə çatdırılıb.<br><br>Sosial/maarifləndirici layihələr olan halda: Layihə müraciətində qrant layihənin həyata keçirilməsinin davamlı sosial xidmətlərin yaradılmasına necə dəstək olacağı aydın şəkildə formalaşdırılıb.<br><br>Fəaliyyət planında verilmiş fəaliyyətlər məntiqlidir və vaxt çərçivəsinə uyğun gəlir (kommersiya layihələri halında layihənin həyata keçirilmə müddəti 4 aydan, sosial/maarifləndirici layihələrdə isə 6 aydan artıq olmamalıdır).<br><br>Layihə müraciətində layihənin həyata keçirilmə riskləri qiymətləndirilib və onların azaldılması yolları təklif olunub. | **20 bal** |
| 3. **Layihənin həyata keçirilməsindən əldə olunan nəticələr**<br><br>Layihə yerli əhali üçün gəlir yaratmaq imkanının yaradılması/gəlirlərin artırılmasında və yaşam tərzinin yaxşılaşdırılmasında, yeni xidmətlərin tətbiqində öz töhfəsini verir. (Məsələn: yeni iş yerlərinin yaradılması, mövcud iş şərtlərinin yaxşılaşdırılması, bilik və innovasiyanın bölüşülməsi). | **20 bal** |
| 4. **Qadınların, gənclərin, etnik azlıqların və başqa həssas qrupların gücləndirilməsi və inteqrasiya**<br><br>Layihə qadınların, gənclərin, etnik azlıqların və başqa həssas qrupların ehtiyaclarına münasibət bildirir, onların sosial və iqtisadi gücləndirilməsinə xidmət göstərir və etnik, yaxud sosial baxımdan fərqli qrupların qarşılıqlı əməkdaşlığını nəzərə alır  (Difraksiya). | **15 bal** |

| | |
|---|---|
| 5. **Bilik, təcrübə və imkanlar**<br><br>Ərizəçinin layihəni həyata keçirmək üçün müvafiq biliyi və ya təcrübəsi olmalıdır. Eləcə də layihənin həyata keçirilməsinə dəstək olan ön şərtlər, kənar faktorlar və resurslar var (insani, texniki və s.). | **5 bal** |
| 6. **Davamlılıq**<br><br>Müraciətdə ideyanın nə qədər real olması və onun nəticələrinin nə dərəcədə uzunmüddətli olması göstərilib. | **10 bal** |
| 11. **Layihənin büdcəsi və qrant məbləği**<br><br>Layihənin büdcəsi məntiqli, realdır və qrant resurslarının effektiv istifadəsini əks etdirir. Tələb olunan büdcə qadağan edilmiş xərcləri əhatə etmir (Bax. başlıq 4); Eləcə də tələb olunan məbləğ müsabiqənin maliyyələşdirilmə meyarlarına uyğundur (Bax. həmçinin, başlıq 4). | **10 bal** |
| 12. **Tələb olunan sənədlərin dolğunluğu**<br><br>Aplikant tərəfindən bütün tələb olunan sənədlər təqdim olunub (Bax. Başlıq 5, I mərhələ). | **5 bal** |

Qeyd olunan meyarlara əsaslanaraq qrant müraciətləri qrant komissiyası üzvləri tərəfindən fərdi şəkildə qiymətləndiriləcək. Konkret müraciətdə komissiya üzvləri tərəfindən edilən fərdi qiymətləndirmə balları toplanacaq və orta aritmetik rəqəm hesablanacaq. Bu konkret qrant müraciətinin qiymətləndirilmə balı hesab olunacaq. Ən yüksək balı olan qrant müraciətləri maliyyə qazanacaqlar.

Müraciətlərin qiymətləndirilməsi prosesində komisisyanın ərizəçiyə layihə ideyasının formalaşdırılması məqsədi ilə tövsiyə vermək səlahiyyəti var. Eləcə də qrant komissiyasının, müraciətdə qeyd olunmuş halların yoxlayışı məqsədi ilə ərizəçilərdən əlavə məlumat təqdim etmək və ya konkret məsələ ilə bağlı açıqlamalar vermək, eləcə də faktlar və halların yerində yoxlanılmasını tələb etmək hüququ var.

Yuxarıda sadalanan bütün meyarları nəzərə almaqla, ərizəçiyə müsbət və ya mənfi cavab olan halda seçimin nəticələri bildirilir. Mənfi cavab olan halda yazılı tələb əsasında, ərizəçiyə mənfi cavabın səbəbləri haqqında yazılı cavab veriləcək.

# III MƏRHƏLƏ - MONITORINQ VƏ SÖHBƏT

İkinci mərhələ başa çatdıqdan sonra aplikantlarla razılaşaraq, potensial maliyyələşdiriləcək layihələrin yerində monitorinqi və potensial aplikantlarla söhbət planlaşdırılacaq və həyata keçiriləcək.

# IV MƏRHƏLƏ - QRANT MÜRACIƏTLƏRININ TƏSDIQLƏNMƏSI/MÜQAVILƏNIN BAĞLANMASI

Qalib gələn layihələrlə qrant müqaviləsi bağlanacaq və layihə həyata keçiriləcək.

**Maraqların toqquşması, müqavilə və alqı-satqılar**

Seçimdən sonra layihə müraciətləri yekun müzakirə üçün CENN-nin səlahiyyətli şəxsinə veriləcək. Əgər bu mərhələdə CENN razılaşma və vacib prosedurlarda hansısa çatışmazlıq və ya maraq toqquşmasını görərsə onun qrant müqaviləsinin imzalanmasını dayandırmaq səlahiyyəti var. Əgər müraciət və onunla yanaşı təqdim olunmuş bütün sənədlər tam qaydasındadırsa, uğurlu ərizəçi CENN-lə müqaviləyə imza atacaq. Müqavilədə layihənin həyata keçirilməsi, maliyyələşdirilməsində, eləcə də razılaşma şərtlərində hər iki tərəfin rolu və səlahiyyətləri ətraflı qeyd olunacaq.

Müqavilə imzalandıqdan sonra, qrant alan şəxs,müəyyən olunmuş qarşılıqlı məbləği özü xərcləməli və müvafiq maliyyə sənədi təqdim etməlidir, ancaq qrantın xərclənməsini CENN təmin edəcək ( sosial və təhsil layihələri olduqda isə, qrant məbləğinin xərclənməsini tamamilə CENN təmin edir.

Qarşılıqlı maliyyə vəsaitləri qrant fondu ilə yanaşı ərizəçinin büdcəsində sadalanan xidmətlərin göstərilməsinə, məhsulun alınmasına, daşınmasına və ya quraşdırılmasına xərclənəcək.

Layihə başa çatan zaman bütün aktivlər sonradan onun istifadəsinə və baxımına görə cavabdeh olan ərizəçiyə veriləcək.

# 6. MÜRACIƏTLƏR VƏ ŞIKAYƏTLƏR KOMISSIYASI

Qrant müsabiqəsi çərçivəsində qrant prosesi ilə bağlı ərizələr və şikayətərin müzakirəsi məqsədi ilə, Ərizə və Şikayətlər Komissiyası yaradılacaq. Ərizə və Şikayətlər Komissiyası öz səlahiyyəti çərçivəsində ərizə və ya şikayətin qeydiyyatından 10 (on) iş günü müddətində şikayətdə olan vəziyyəti araşdıracaq və şikayət təqdim edənə öz qərarı barədə bildirəcək.

# 7. LAYIHƏNIN MALIYYƏLƏŞDIRILMƏSINDƏN SONRA MONITORINQ

Layihə aparılan zaman bütün hüquqi və maddi sənədlər, layihənin həyata keçirilməsi və monitorinqi zamanı qrant verənə əlçatan olmalıdır. Yuxarıda qeyd olunan sənəd, onda qanun və qrant müqaviləsi ilə nəzərdə tutulmuş pozuntular olmazsa ictimailəşdirilməyəcək. Qrant

qazanan müntəzəm olaraq mühasibat hesabatını təqdim edir və bütün vergi tələblərini Gürcüstan qanunvericiliynə uyğun olaraq həyata keçirir. Qeyd olunan sənəd monitorinq komandasına 5 il ərzində əlçatan olacaq.

Proqram çərçivəsində dəstəklənən layihələr qüvvədə qalmalıdır və ərizəçi tərəfindən razılaşdırılmış müddət ərzində qoyulan məqsədlərə xidmət göstərməlidir. Benefisiarlar təcrübənin bölüşülməsi məqsədi ilə maliyyələşdirilmiş layihələrin (həmçinin donorun) aydın olmasını təmin etməlidirlər. İmza atılan gündən növbəti üç (3) il ərzində CENN-nin tələbi əsasında, benefisiar qrant layihəsinin bütün maraqlanan tərəflərə nümayişini təmin etməlidir.

**İQLIMƏ DAVAMLI KƏND TƏSƏRRÜFATI**

QRANT MÜSABIQƏSI

Qrant bələdçisi